**"BTB Kapital İnvestisiya Şirkəti" ASC-nin**

**dividend siyasəti**

- "**BTB Kapital İnvestisiya Şirkəti**" Açıq Səhmdar Cəmiyyətinin Dividend Siyasəti Azərbaycan Respublikasının qanunvericiliyinə, Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının qaydalarına, Cəmiyyətin Nizamnaməsinə uyğun hazırlanmışdır. Siyasət dividendlərin hesablanması, elanı, məbləği, forması və ödənilməsi müddətlərinə dair İnvestisiya şirkətinin prosedurlarını əks etdirir. Xalis mənfəətin dividendlərin ödənişinə yönəldilməsi İnvestisiya şirkətinin strategiyasının tələblərinə və Səhmdarların Ümumi Yığıncağının qərarına əsaslanır.

- Dividendlərin elanı və ödənilməsi, o cümlədən ödənişlərin məbləği və proseduru İnvestisiya şirkətinin illik təsərrüfat-maliyyə fəaliyyətinin nəticəsi barədə kənar audit tərəfindən hesabat təsdiq edildikdən sonra Səhmdarların Ümumi Yığıncağı tərəfindən müəyyən edilir.

- Dividendlər İnvestisiya şirkətinin xalis mənfəətindən ödənilir və səhmdarlar arasında onların sahib olduqları hər bir səhmlərin sayına proporsional şəkildə bölüşdürülür.

- Mənfəəti bölgüşdürülməsi nəzərdə tutulan maliyyə ilində səhmdar olan şəxslər dividend almaq hüququna malikdir.

- Elan edilmiş dvidendlərin ödənilməsi şərtləri səhmdar yığıncaqının gündəliyində qəbul edilmiş şərtlər əsasında həyata keçirilir.